# HƏRBİ AND

Azərbaycan Respublikasına xidmətimlə fəxr edirəm!

№ 45 (2003) 28 noyabr 2025-ci il, Həftəlik ictimai-siyasi qəzet Qiyməti : 50 qəpik


# Şəhidlik zirvəsinə ucalanlar unudulmur

**Bütün yüksəkliklərdən ucada dayanan bir müqəddəs zirvə var ki, o Şəhidlik zirvəsidir. Bu zirvəni müqəddəs amallar uğrunda vuruşan, qorxu nə olduğunu bilməyən, Vətən və xalq yolunda canını fəda etməkdən çəkinməyən cəsarətli, igid oğullarımız fəth edə bildi. Bu yüksəkliyə ucalan qəhrəmanlar ölmürlər, əksinə ölümləri ilə bir əbədilik qazanırlar. Doğma Vətən torpağını qoruyan, uğrunda canından, qanından keçən igidlərimizi yad etmək isə hər birimizin müqəddəs borcu olmalıdır.**

**Vətən müharibəsində qazandığımız Qələbədə payı olan igid oğullarımız arasında şəhid leytenant Ərtoğrul Nadirli, şəhid baş leytenant İlkin Muradlı və şəhid Vüqar Əsgərov da var. Onlar mənfur düşmənə qarşı son damla qanlarına qədər vuruşub, doğma diyarımızın istiqlalı, ölkəmizin müstəqilliyi və azadlığı yolunda şəhidlik zirvəsinə ucalıblar. Xalqımız daima onlarla öyünür, əbədi olaraq qəlblərində yaşadırlar. Bu günlərdə qəhrəman şəhidlərimiz doğulub boya-başa çatdıqları ata-baba yurdlarında dərin ehtiramla yad olundular.**



44 günlük İkinci Vətən Müharibəsində vuruşaraq igidlik nümayiş etdirən, qəhrəman şəhid leytenant Ərtoğrul Nadirlinin anım günü Sədərəkdə qeyd olunub.

Qəhrəmanın anım günü münasibətilə Sədərək rayon Şəhidlər Xiyabanında tədbir keçirilib. Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, dövlət himni səsləndirilib və şəhidin ruhuna dualar oxunub. Tədbir iştirakçıları şəhidlərin məzarına tər çiçəklər düzüb, hörmət və ehtiramlarını ifadə ediblər.

Tədbirdə çıxış edən rayonun icra başçısı Naim Cahidzadə ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçən bütün şəhidlərin xalqımızın qəlbində əbədi yaşayacağını bildirib. O qeyd edib ki, leytenant Ərtoğrul Nadirli kimi igid övladlarımızın göstərdiyi qəhrəmanlıq hər zaman gənclərimiz üçün vətənpərvərlik nümunəsi olacaq. İcra başçısı şəhid ailələrinə göstərilən dövlət qayğısından danışaraq vurğulayıb ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı Qələbə şəhidlərimizin qanı və canı bahasına əldə olunub.

Tədbirdə digər çıxış edənlər vurğulayıb ki, Ərtoğrul adı ilə böyüyüb, uşaqlığı cəbhədə düşmən postlarının beş addımlığında keçib. Hər gün Sədərək döyüşlərində can qoyan igidlərin həyat hekayələri ona hərbçi olmaq üçün stimul verib. O, adının sahibi kimi bir türk fatehi olub və Vətənin qanayan yarasına məlhəm olan qardaşlarına qoşulub.

Şəhidin atası Hümbət Nadirli çıxış edərək oğlunun uşaqlıq illərindən, vətənə bağlılığından və hərbçi olmaq arzusundan danışıb. O bildirib ki, Ərtoğrul daim elmə, intizama, Vətən sevgisinə önəm verən, məqsədinə doğru qətiyyətlə irəliləyən bir gənc olub. Hümbət müəllim şəhid övladlarına göstərilən diqqət və qayğıya görə dövlət rəhbərliyinə, eləcə də tədbirin təşkilatçılarına dərin minnətdarlığını ifadə edib və oğlunun xatirəsini əziz tutan hər kəsə təşəkkürünü bildirib.

Şəhid leytenant Ərtoğrul Hümbət oğlu Nadirlidir 31 mart 1997-ci il Sədərək rayonunun Qaraağac kəndində anadan olub. 2012-ci ildə Naxçıvandakı Heydər Əliyev adına Hərbi Liseyə daxil olan Ərtoğrul 2015-ci ildə oranı əla qiymətlərlə bitirib və Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olub. 24 iyun 2019-cu ildə Ali Hərbi Məktəbi bitirərək leytenant rütbəsi alıb və Tovuz bölgəsinə göndərilib. Altı ay xidmətdən sonra Bakıya kursa gələn Ərtoğrul buranı bitirərək Daşkəsən rayonuna xidmət vəzifəsinə yola salınıb. 27 sentyabrda Vətən müharibəsində iştirak etmək üçün Goranboy rayonuna ezam olunub. Murovdağ yüksəkliyinin alınmasında döyüş yoldaşları ilə birlikdə çətin əməliyyatlarda iştirak edib, qəhrəmanlıq göstərib. Eyni zamanda onlarla yaralı yoldaşını döyüş bölgəsindən çıxarıb və xeyli sayda erməni faşistini məhv ediblər. Ərtoğrul oktyabrın 2-də Murovdağ döyüşləri zamanı uzaq məsafədən snayper atəşi ilə şəhadətə ucalıb. 52 gün sonra yüksək rütbəli hərbçilərin köməyi ilə tapılıb və 26 noyabrda Sədərək rayonunun Şəhidlər Xiyabanında dəfn olunub.

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, Ərtoğrul Nadirli ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları və III dərəcəli "Rəşadət" ordeni ilə təltif edilib.

**Böyük Qələbəyə saatlar qalmış gəncliyini və ömrünü Vətənə fəda edən, adını unudulmayacaq qəhrəmanlarımızın sırasına yazan şəhid baş leytenant İlkin Muradlının anım mərasimi Şahbuz şəhər qəbiristanlığında yerləşən məzarının önündə keçirilib.**

Mərasimdə Şahbuz Rayon İcra Hakimiyyətinin əməkdaşları, rayon ictimaiyyətinin nümayəndələri, şəhid ailələri, qazilər və hərbçilər iştirak ediblər. Şəhidlərimizin və ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəmanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Dini icmanın üzvü tərəfindən Qurani-Kərimdən ayələr oxunub.

Tədbirdə Şahbuz Rayon İcra Hakimiyyətinin əməkdaşları və şəhid valideynləri çıxış edərək qəhrəmanın şərəfli həyat və xidmət yolundan, döyüşlər zamanı göstərdiyi şücaət və qəhrəmanlıqlardan söz açıblar. Qeyd olunub ki, Azərbaycan xalqı öz qəhrəman övladları ilə həmişə fəxr edir, onların göstərdikləri igidlik və Vətən sevgisi gələcək nəsillər üçün örnəkdir.

Çıxış edən məktəblilər isə vətənpərvərlik mövzusunda şeirlər səsləndiriblər.

Şəhid baş leytenant İlkin Muradlı 27 sentyabr 1995-ci ildə Şahbuz şəhərində anadan olub. Orta təhsilini tamamladıqdan sonra 2011-ci ildə Naxçıvan Muxtar Respublikasında yerləşən Heydər Əliyev adına Hərbi Liseydə təhsilini davam etdirib. 2014-cü ildə liseyi bitirərək Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub və 2017-ci ildə təhsilini başa vuraraq leytenant rütbəsi ilə hərbi xidmətə başlayıb. 29 iyun 2020-ci ildə baş leytenant rütbəsi alaraq xidmətini davam etdirib. Bu vəzifədə öz hərbi bacarıqlarını daha da təkmilləşdirərək peşəkar bir zabit kimi formalaşıb. Ağsu və Tovuz rayonlarında xidmət etdiyi dövrdə üç il ardıcıl "İlin ən yaxşı kəşfiyyatçısı" seçilib və "Azərbaycan Ordusunun 100 illiyi yubileyi" medalı ilə təltif olunub.

İlkin Muradlı Murov yüksəkliyinin, Hadrutun və Şuşanın işğaldan azad olunması uğrunda şücaətlər göstərib. Şuşanın azad olunmasında xüsusi təyinatlı dəstənin tərkibində çox ağır döyüşlərdə iştirak edib. Döyüşlər zamanı komandirinin şəhid olması İlkini dərindən sarsıdıb. Döyüş yoldaşlarının sözlərinə görə, İlkin bundan sonra bütün əməliyyatlara "Komandirimin qisasını alacam!" deyərək başlayıb. İlkin Muradlının döyüşdüyü dəstə 8 noyabr Şuşa azad olunandan sonra Kəlbəcər istiqamətinə irəliləyir. O, noyabrın 9-u davam edən döyüşlərdə bədəninin müxtəlif yerlərindən qəlpə yarası alaraq Kəlbəcər yaxınlığında şəhid olub.

Şəhid baş leytenant İlkin Muradlı Prezident İlham Əliyevin Sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda", "Döyüşlərdə fərqlənməyə görə", "Şuşanın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

**Kəngərli rayonunda isə qəlbi Vətənlə döyünüb onun uğrunda da bu həyatla vidalaşıb şəhadətə ucalan Vətən müharibəsinin qəhrəman şəhidi, igid övladımız Vüqar Rza oğlu Əsgərovun doğum günü münasibətilə anım tədbiri keçirilib.**



Tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canından keçmiş qəhrəman şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edərək dərin ehtiramlarını ifadə ediblər. Ardınca dövlətimizin rəmzi, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov Vüqar Əsgərovun şərəfli həyat yolundan, döyüşlərdə göstərdiyi igidlik və fədakarlıqdan danışıb. O vurğulayıb ki, məhz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, rəşadətli Ordumuzun gücü, şəhidlərimizin qanı və qazilərimizin şücaəti sayəsində bu gün Azərbaycan xalqı azad, suveren və qalib ölkənin vətəndaşı kimi qürurla yaşayır. İcra başçısı şəhidlərimizin xatirəsinin dövlətimiz və xalqımız tərəfindən daim uca tutulduğunu qeyd edib.

Şəhid atası Habil Cəfərov çıxış edərək valideynlər adından göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib. O, Vətən uğrunda canını fəda edən oğullarımızın xatirəsinin əbədi olduğunu, hər birinin Azərbaycanın qürur mənbəyi kimi yaddaşlarda yaşayacağını diqqətə çatdırıb.

Tədbirdə Kəngərli Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin əməkdaşları da çıxış edərək şəhid ailələrinin fədakarlığından, Vətən uğrunda canını verən qəhrəmanların keçdiyi döyüş yolundan danışıb.

Rəsmi çıxışlardan sonra şəhid Vüqar Əsgərovun xatirəsinə həsr olunmuş videoçarx nümayiş etdirilib. Tədbir Qarabağlar kənd 1 nömrəli tam orta məktəbin şagirdlərinin hazırladığı vətənpərvərlik ruhunda ədəbi-bədii kompozisiya ilə yekunlaşıb, iştirakçılar gənc qəhrəmanın xatirəsini bir daha dərin hörmət və ehtiramla yad ediblər.

*Bəxtiyar ƏLİYEV*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*
*"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin mətbuat katibi*

